

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 158 (23.570)

*19 sentyabr 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## S.H.Novruzovaya “Əməkdar dövlət qulluqçusu” fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Sevda Hüseyn qızı Novruzovaya **“Əməkdar dövlət qulluqçusu”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 sentyabr 2020-ci il*

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında musiqi təhsili və mədəniyyətin inkişafı sahəsində səmərəli fəaliyyətlərinə görə:

Hüseynov İlqar Adil oğluna

Hüseynova Səmirə Seyran qızına – **“Əməkdar müəllim”** fəxri adı;

Əsədov Vaqif Mustafa oğluna

Quliyev Nihat Heydər oğluna – **“Əməkdar artist”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 sentyabr 2020-ci il*

## “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında bank sisteminin inkişafında səmərəli fəaliyyətinə görə Oktay Aftandil oğlu Qurbanov **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 sentyabr 2020-ci il*

# “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün müasir iş şəraiti yaradılıb






Ölkə Prezidenti cənab İlham Əliyev informasiya texnologiyalarının əhəmiyyətini qeyd edərək demişdir: ***“Bu gün müasir texnologiyalar olmadan heç bir dövlət normal inkişaf etməyə qadir deyildir”.***

Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində yeni texnologiyalar geniş tətbiq olunur. Bu sahənin maddi-texniki bazasının gücləndirilməsi əhalinin informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanlarını yaxşılaşdırmış, bütün yaşayış məntəqələri fiber-optik xətt və sürətli internetlə təmin olunmuş, 4-cü nəsil mobil rabitə xidmətinin əhatə dairəsi genişlənmişdir.

Sentyabrın 18-də “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.



Ali Məclisin Sədri “Huawei” şirkətinin Azərbaycan üzrə baş ofisinin icraçı direktoru Lu Canlin və Avrasiya regionları üzrə korporativ biznes rəhbəri Ma Tian ilə görüşmüşdür.

“Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Kamil Yusifov çıxış edərək demişdir ki, Naxtel 4G mobil operatoru Ali Məclis Sədrinin iştirakı ilə 25 oktyabr 2016-cı ildə fəaliyyətə başlamışdır. 4 ilə yaxın müddətdə keyfiyyətli, sərfəli və kəsintisiz mobil telekommunikasiya həyata keçirilmişdir. Sahibkarlıq subyektlərinin uğurlarının təməlində ölkəmizdə bu sahənin inkişafına göstərilən dövlət qayğısı dayanır və bu qayğı muxtar respublikada da uğurla davam etdirilir. Naxtel mobil operatoru muxtar respublikanın yaşayış məntəqələrinin 98 faizini əhatə edir. Kamil Yusifov göstərilən diqqət və qayğıya görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni ofis binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyəti Sahibkarlığın İnkişafına Dəstək Fondu tərəfindən ayrılmış kredit hesabına yaradılmışdır. Cəmiyyət yarandığı gündən işini düzgün qurmasının nəticəsidir ki, həm fəaliyyətini genişləndirə bilmiş, həm də götürdüyü krediti vaxtında qaytarmışdır.

Ali Məclisin Sədri uğurlu və səmərəli fəaliyyətinə görə “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivinə təşəkkür edərək demişdir: Dövlət zəmanəti ilə yaradılmış Naxtel 4G mobil operatoru muxtar respublikanın 105 mindən yuxarı sakininə xidmət edir. Cəmiyyətdə 60-a yaxın gənc mütəxəssis çalışır. Hər bir şirkətin fəaliyyətinin əsas məqsədi müştərilərə göstərilən xidmətlərin səviyyəsini yüksəltməkdən, onların razılığını qazanmaqdan ibarətdir. Fəaliyyəti genişləndirməyin əsas yolu da məhz budur. Hazırda muxtar respublikada müxtəlif mobil operatorlar rabitə xidməti göstərir. Bu da bazarda rəqabətin yaranmasını təmin edir.

Bildirilmişdir ki, “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyətinin uğurlu fəaliyyət göstərməsinin bir səbəbi də müasir və keyfiyyətli avadanlıqlarla təmin olunmasıdır. Bu avadanlıqların istehsalçısı Çin Xalq Respublikasının “Huawei” şirkətidir. “Huawei” şirkəti ilə qarşılıqlı əlaqələr muxtar respublikaya yeniliklər gətirib.

Ali Məclisin Sədri Çin Xalq Respublikasının “Huawei” şirkətinə səmərəli əməkdaşlığa görə təşəkkür etmişdir.



“Müasir iş şəraiti keyfiyyətli xidmət deməkdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, cəmiyyət bu gün yeni ofislə təmin olunur. Qarşıda duran əsas vəzifə bundan sonra da abunəçilərə keyfiyyətli mobil rabitə xidməti göstərmək, müştəri məmnuniyyəti qazanmaqdan ibarətdir.

Ali Məclisin Sədri kollektivə işlərində uğurlar arzulamış, yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, binanın birinci mərtəbəsində satış və xidmət mərkəzi, anbar, ikinci mərtəbəsində isə iş otaqları və 40 yerlik iclas zalı yerləşir. “Naxtel” Məhdud Məsuliyyətli Cəmiyyətinə ötən dövrdə kəsintisiz internet və danışığı təmin etmək üçün 20 baza stansiyası, məlumat hesablama və internet paketlərini idarə edən sistemlər alınmışdır. Baza stansiyalarından 15-i istifadəyə verilmiş, 5-nin qurulması isə davam etdirilir. Hazırda cəmiyyət 113 baza stansiyası vasitəsilə abunəçilərə mobil telekommunikasiya – danışıq, SMS, toplu SMS, internet və GPS monitorinq xidmətləri göstərir. Şəbəkə keyfiyyətinin

*Ardı 2-ci səhifədə*

qorunması üçün optimizasiya işləri davam etdirilir. Sürətli abunəçi artımı nəzərə alınaraq ikinci alternativ proqram təminatı sistemi yaradılmışdır. Hazırda aktiv və ehtiyat olmaqla, 2 məlumat hesablama sistemi proqram təminatının fasiləsiz xidmətini təşkil edir.

Cəmiyyət şəbəkə təminatı üzrə Çin Xalq Respublikasının "Huawei", mobil telekommunikasiyada billinq proqram təminatı üzrə Türkiyənin "Akgün Yazılım", rominq xidmətləri təminatı üzrə isə "Azercell" şirkəti ilə əməkdaşlıq edir. Abonentlər ölkənin digər regionlarında milli, xarici ölkələrdə isə beynəlxalq rominq xidmətlərindən istifadə edirlər. 8 ölkədə – Gürcüstan, Ukrayna, Türkiyə, Rusiya, İran, Moldova, Birləşmiş Ərəb Əmirlikləri və Belarusda beynəlxalq rominq xidməti mövcuddur. Xidmətin aktivləşdirildiyi ölkə sayının 25-ə çatdırılması üçün işlər davam etdirilir.




Ali Məclisin Sədri Çin Xalq Respublikasının "Huawei" şirkətinin Naxçıvanda ofisinin yaradılmasının əhəmiyyətini diqqətə çatdırmışdır.

"Huawei" şirkətinin Azərbaycan üzrə baş ofisinin icraçı direktoru Lu Canlin demişdir: "Şirkətimizə güvəndiyiniz və bizi seçdiyiniz üçün minnətdarlıq edirik. Bizim Naxçıvanla yalnız kommersiya deyil, həm də dostluq əlaqələrimiz vardır. Ümid edirəm ki, ən qısa zamanda Naxçıvanda şirkətin ofisi yaradılacaq".

Ali Məclisin Sədri "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birgə fəaliyyətin qurulması, mütəxəssis hazırlığı və xidmət keyfiyyətinin artırılması ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

21 sentyabr Beynəlxalq Sülh Günüdür

# Bəşəriyyətin ən ali dəyəri – sülh

***Birləşmiş Millətlər Təşkilatının 1981-ci ildə qəbul etdiyi Qərara əsasən 21 sentyabr həmin tarixdən etibarən bütün dünyada "Beynəlxalq Sülh Günü" kimi qeyd olunur.***

Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir. İnsanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zəruridir. Ümumiyyətlə, sülh və sabitlik inkişafın təməlidir. Bu proses hər ölkədə və regionda, onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq özünəməxsus şəkildə inkişaf etdirilir.

Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, 1 milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmişdir. Təhsil və mədəniyyət ocaqlarımız, dini və tarixi abidələrimiz yerlə-yeksan edilmiş, terrora məruz qalmışdır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Xocalı soyqırımının əsl mahiyyəti açılmış və 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisində Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilmişdir. Ulu öndər böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, regionda sabitliyin yaranmasına nail olmuşdur.

Ulu öndər beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması istiqamətində ardıcıl tədbirlər görmüşdür. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi üçün 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Bundan başqa, ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində də bir sıra mühüm təkliflər irəli sürülmüşdür. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə Görüşü zamanı ümummilli liderin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən qəbul və müdafiə olunmuşdur.

Böyük şəxsiyyətin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının preambula hissəsində ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Azərbaycan dövlətinin ən ülvi niyyəti kimi təsbit olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin sülhün və əmin-amanlığın əldə olunması istiqamətindəki əvəzsiz xidmətləri bütün dünya xalqları tərəfindən yüksək qiymətləndirilmiş, dahi şəxsiyyət 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülmüşdür.

Azərbaycan xalqı hər zaman sülhsevər olmuşdur. Bunu onunla izah etmək olar ki, tarixən vətənimizdə azərbaycanlılarla yanaşı, digər xalqların nümayəndələri də mehribancasına yaşamış və hazırda da yaşayırlar. Ölkəmizin yüksək tolerantlığa sahib olması indi bir çox ölkələr üçün əsl nümunədir. Azərbaycanda yaşayan insanlar arasında milli və ya dini ayrı-seçkiliyə yol verilmir.

Dahi şəxsiyyətin sülhsevər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir. ***"Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır"***, – deyən dövlət başçısının apardığı gərgin daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artır, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyir, ölkəmizin ərazi bütövlüyünü tanıyırlar.

Bütün bunlara baxmayaraq, işğalçı ölkə hələ də beynəlxalq hüququn tələblərini pozaraq işğal siyasətini davam etdirir. Erməni işğalçıları 2020-ci il iyulun 12-də atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini ələ keçirməyə cəhd göstərmiş, dinc əhalinin yaşayış yerləri davamlı olaraq atəşə tutulmuş, beynəlxalq hüquq normaları kobud şəkildə pozulmuşdur ki, bu da dünya miqyasında Ermənistanın təcavüzkarlıq və işğalçılıq siyasətini bir daha nümayiş etdirmişdir.

21 sentyabr – Beynəlxalq Sülh Günü Naxçıvan Muxtar Respublikasında da müxtəlif tədbirlərlə geniş şəkildə qeyd olunur. Təcavüzkar Ermənistan tərəfindən sülhün və sabitliyin pozulması səbəbindən muxtar respublikamız 30 ilə yaxındır ki, blokada vəziyyətində yaşayır. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan ictimai-siyasi sabitlik və əmin-amanlıq şəraitində inkişaf edir. Aparılan düzgün siyasətin nəticəsidir ki, artıq Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası planetin ən təhlükəsiz guşələrindən biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti nəticəsində Naxçıvan blokada şəraitində inkişafın əsl nümunəsini ortaya qoyaraq Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilmişdir. Ötən dövrdə muxtar respublikada iqtisadiyyatın və sənayenin bütün sahələrinin inkişafı, istehsal və xidmət sahələrinin yaradılması, yeni iş yerlərinin açılması, yaşayış məntəqələrinin abadlaşdırılması, ərzaq və enerji təhlükəsizliyinin, səmərəli məşğulluğun təmin edilməsi əhalinin maddi rifah halının yaxşılaşdırılması, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafının bariz nümunəsidir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə verilən yüksək qiymətin təzahürüdür.

Bu gün Azərbaycan öz ərazi bütövlüyünün sülh yolu ilə təmin edilməsinin tərəfdarıdır və ölkəmiz problemin həllinin beynəlxalq hüququn normaları çərçivəsində həll olunmasını istəyir. Bu istək isə Azərbaycanın hüquqi dövlət kimi bir daha sülhməramlı siyasətə sadiqliyindən irəli gəlir. Çünki müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***"Azad və demokratik cəmiyyət quruculuğu yolunda qətiyyətli addımlarını atan və geosiyasi cəhətdən olduqca həssas bölgədə yerləşən müstəqil Azərbaycan Respublikası üçün sülhün, sabitliyin hökm sürdüyü təhlükəsiz mühit həyati əhəmiyyət kəsb edən bir məsələdir".***

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

Əqil Mehdiyev – 100

# Səhiyyə fədaisi, cəfakeş həkim



*"Əsl xoşbəxt həkimlər ümumi ideallar naminə özünü tibb elminə həsr edənlər və başqasının xoşbəxtliyi ilə xoşbəxt olanlardır". Görkəmli cərrah Nikolay Piroqovun bu kəlamını xatırlayarkən tanınmış həkim, ictimai xadim Əqil Mehdiyevi anmamaq mümkün deyil. Fədakar əməyi ilə xalqın rəğbətini, hörmətini qazanan, hər zaman böyük məhəbbət və minnətdarlıqla xatırlanan tanınmış səhiyyə işçisi 1920-ci ildə muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən biri olan Nehrəm kəndində dünyaya göz açıb. Onun həyat yolu çox çətin və şərəfli olub. Orta təhsilinə Nehrəm kənd məktəbində başlayan Əqil Mehdiyev daha sonra təhsilinə Bakı şəhərindəki 18 nömrəli orta məktəbdə davam edib. Bakıda onun müəllimlərindən biri böyük şairimiz, nakam ömürlü Mikayıl Müşfiq olub. Orta təhsilini 1938-ci ildə Naxçıvan şəhərindəki 1 nömrəli orta məktəbdə başa vurub. 1940-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə qəbul olunan səhiyyə fədaisi İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar təhsilini yarımçıq saxlamaq məcburiyyətində qalıb və müharibəyə yollanıb.*

"Şərq qapısı" qəzetinin 1975-ci il 31 yanvar tarixli nömrəsindəki "Həssas qəlb" adlı məqalədə Əqil Mehdiyevin təhsili ilə bağlı dediklərini oxuduqca bir daha aydın olur ki, gələcəkdə yüzlərlə insana sağlamlıq bəxş edəcək bu böyük insan sevdiyi ixtisası dərindən öyrənmək üçün enişli-yoxuşlu yollardan keçməli olub. Məqalədə yazılır: "Əqil müəllim danışdıqca ömür xatirələri dilə gəldi. Onun dediklərindən: "1940-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olaraq seçdiyim ixtisasa təzəcə yiyələnirdim ki, müharibə başlandı. Tələbəlik həyatım yarımçıq qaldı. Müharibə çiçəklənməkdə olan arzularımın qarşısına sədd çəkdi..." Lakin oxumaq arzusu onun ürəyində qalmır. 1947-ci ildə Əqil Mehdiyev Azərbaycan Pedaqoji İnstitutunun qiyabi şöbəsinə qəbul olunur və həmin institutu müvəffəqiyyətlə başa vurur. 1943-1955-ci illərdə Nehrəmdə müəllim və məktəb direktoru vəzifəsində çalışır. İşlədiyi müddətdə işgüzarlığı, qayğıkeşliyi, prinsipiallığı ilə tanınan Əqil müəllim həkim olmaq istəyindən əl çəkmir. Təbii ki, yenidən Tibb İnstitutunda təhsil almaq insandan qətiyyət, cəsarət, iradə tələb edir. Amma o bunu da bacarır. Xəyalını amala çevirən bu iradəli və istedadlı gənc istəyinə nail olur və beləliklə 1953-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə qəbul olunur. Təhsil almaqla bərabər, institutun kitabxanasında işləyən Əqil Mehdiyev institutu bitirəndə 39 yaşı olur. Ali məktəbi bitirdikdən sonra 1959-cu ildə Babək rayonunun Qahab kənd xəstəxanasında baş həkim kimi fəaliyyət göstərməyə başlayır. 1960-cı ilin oktyabr ayından isə Nehrəm kənd xəstəxanasının baş həkimi təyin olunur və 1973-cü ilədək həmin vəzifədə çalışır. O vaxtlar Nehrəm Xəstəxanası, nəinki Naxçıvan MSSR-də, həmçinin Azərbaycanda da nümunəvi tibb ocaqlarından biri sayılırdı.

"Şərq qapısı" qəzetinin 1962-ci il 26 aprel tarixli nömrəsindəki "Sağ ol, Əqil!" başlıqlı təşəkkür dolu yazıda oxuyuruq: "...Ağır vəziyyətdə müalicəyə gətirilmiş gənc ana Rübabə Xəlilovanın sağalıb xəstəxanadan çıxması hamımızı sevindirdi. O, öz körpəsini sevinclə bağrına basdı, fərəhdən gözləri yaşardı. Sənə və xəstəxananın bütün kollektivinə dönə-dönə təşəkkür etdi. İndi "Kommunizm" kolxozunda kimdən səni soruşsan deyər: – Sağ olsun, Əqil! Sənin şəfalı əllərin çoxlarını yenidən həyata qaytarmışdır…" Qəzetin digər bir nömrəsində – 1975-ci il 31 yanvar tarixli "Həssas qəlb" adı ilə dərc olunan məqalə isə Əqil həkimin əsl səhiyyə fədaisi olduğunu bir daha sübut edir: "İlk tibbi fəaliyyətə Qahab kəndində başlayan Əqil Mehdiyev bir ildən sonra Nehrəmə dəyişdirilir. Doğma kəndlərindəki tibb məntəqəsində işə başlayan Əqil Mehdiyev orada, ilk növbədə, səhiyyə mədəniyyətini yüksəltməyi qarşısına qoyur. Məntəqə uçuq-sökük bir binada yerləşirdi. Tavan-döşəməsi yararsız olan otağa 6 çarpayı güclə sığırdı. Xidmət işindən isə danışmağa gəlməzdi. Baş həkim işgüzarlıqla işə girişdi. Məntəqəni 15 çarpayılıq xəstəxanaya çevirdi. Lakin bununla da kifayətlənmədi. O, kənddə 50 çarpayılıq nümunəvi xəstəxana açılmasına nail oldu. Kənddə səhiyyə mədəniyyətini yüksəltdi. Bu sahədə həkimlərdən S.Novruzov, Ə.Axundov, K.İsmayılov və başqaları, həmçinin kənd camaatı fəallıq göstərdilər".

Yüksək təşkilatçılıq bacarığı nəzərə alınaraq Əqil Mehdiyev muxtar respublikada ən böyük səhiyyə ocağına – Nəriman Nərimanov adına Naxçıvan Respublika Xəstəxanasına (indiki Naxçıvan Muxtar Respublika Xəstəxanası) baş həkim təyin edilir, özü də elə bir vaxtda ki baxımsızlıq və laqeydlik ucbatından bu tibb ocağı çox pis vəziyyətdə idi. Əqil müəllim baş həkim kimi fəaliyyətə başlaması ilə burada qısa müddətdə əsaslı dönüş yaradır. Binanın zirzəmisi çirkabdan təmizlənir, palatalar əsaslı təmir edilir, çarpayıların sayı artırılır. Travmatologiya, Urologiya və Reanimasiya şöbələri təşkil edilir. Gənc həkim və tibb işçilərinin fəaliyyəti üçün geniş imkan yaradılır. Baş həkim işlədiyi 11 ildə respublika xəstəxanası tanınmaz dərəcədə dəyişir. Tibb sahəsində danılmaz xidmətləri olan səhiyyə təşkilatçısı Əqil Mehdiyev "Naxçıvan MSSR-in Əməkdar həkimi" fəxri adına layiq görülür.

*Ardı 3-cü səhifədə*

İşgüzar, yorulmaz fəaliyyəti ilə hər zaman xalqı üçün xidmət edən səhiyyə fədaisi, təəssüf ki, heç bir səbəb olmadan, yeni rəhbərliyin tapşırığı ilə 1984-cü ildə baş həkim vəzifəsindən azad edilir. O bu ədalətsizliyi soyuqqanlılıqla, təmkinlə qarşılayır və yenə Nehrəm kənd sahə xəstəxanasına qayıdır. Həmin dövrdə sıravi həkim işləyir, ağsaqqallıq missiyasını şərəflə yerinə yetirir. Kəndin bir çox sosial problemləri məhz onun qayğısı, diqqəti və təşkilatçılığı sayəsində həll olunur.

Və nəhayət, haqq yerini tapır. Azərbaycan müstəqilliyə, demokratiyaya qovuşur. Xalqın təkidi ilə ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra sular durulur, fəlakətdə olan ölkə azadlığa çıxır, siyasi sabitlik yaranır. Beləliklə, incidilmiş, mənən sarsıdılmış xalqın ehtiyac duyduğu insanlar yenidən cəmiyyətə gərəkli olurlar. Əqil Mehdiyev də 1993-cü ilin noyabrında ikinci dəfə Naxçıvan Respublika Xəstəxanasına baş həkim təyin edilir. Səmərəli və işgüzar fəaliyyəti, yüksək təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq o, 1995-ci ilin iyun ayında Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri vəzifəsinə təyin olunur. 2004-cü ilin iyul ayınadək həmin vəzifədə layiqincə çalışır. Əqil həkimin nazir işlədiyi bu illərdə səhiyyə sistemində ciddi dönüş yaranır.

Daha sonra o, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilir. 1997-ci ildən Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri, 2002-ci ildən isə Azərbaycan Respublikası Ağsaqqallar Şurası sədrinin müavini təyin olunur. Əqil Mehdiyevin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərdə əmək rəşadətlərinə görə", "Əməkdə fərqlənməyə görə" medalları, Naxçıvan MSSR Ali Sovetinin fəxri fərmanı, "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif olunub. Bu fədakar təbib "Azərbaycan SSR-in Əməkdar həkimi" fəxri adına layiq görülüb.

Yorulmaz səhiyyə fədaisinin fəaliyyətinə ən yüksək qiyməti ulu öndərimiz Heydər Əliyev verib. Dahi rəhbərin imzaladığı fərmanla Əqil Mehdiyev 2001-ci ildə "Şöhrət" ordeni, 2003-cü ildə isə ölkənin yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif olunub.

Bu il tanınmış həkim və ictimai xadimin anadan olmasının 100 illiyi tamam olur. Ömrünün 50 ildən çoxunu səhiyyə təşkilatçısı və həkim kimi muxtar respublika səhiyyəsinin inkişafına həsr edən Əqil Mehdiyevin əməyi bu gün də öz layiqli qiymətini almaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2020-ci il sentyabrın 17-də Əqil Mehdiyevin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən "Əqil Mehdiyevin 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib.

*Onun layiq görüldüyü mükafatlar cəfakeşliyin, fədakarlığın, zəngin ömrün, nümunəvi həyatın və enişli-yoxuşlu illərin halal bəhrəsidir. Ali Məclis Sədrinin imzaladığı mühüm dövlət sənədi isə təkcə tanınmış səhiyyə işçisi, ictimai xadim, nüfuzlu el ağsaqqalı Əqil Mehdiyevin həyat və fəaliyyətinə verilən dəyər deyil, həm də dövlətimizin digər sahələrdə olduğu kimi, milli səhiyyəmizin də inkişafında özünəməxsus xidmətləri olan şəxslərin əməyinə verilən yüksək qiymət, muxtar respublikamızın zəngin səhiyyə ənənələrinin yaşadılmasına göstərilən böyük qayğıdır.*

**Gülcamal TAHİROVA**

# Naxçıvanın informasiya blokadası sahəsindəki böyük qələbəsi

***Naxçıvan Muxtar Respublikasının tarixinə 1990-cı ildən başlayaraq informasiya blokadası yazıldı. Mənfur Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində bu qədim diyara gələn bütün kommunikasiya xətləri, o cümlədən teleradioötürücü qurğuları tamamilə dağıdılaraq məhv edildi. Həmin dövrdə çörək növbəsi, su qıtlığı, enerji çatışmazlığı və başqa problemlərlə mübarizə aparan naxçıvanlılar ölkədə olub-bitənlərdən də xəbərsiz qaldılar.***

Lakin 1990-cı il iyulun 22-də Naxçıvana qayıdan və buradan Azərbaycanın xilaskarlıq missiyasına başlayan görkəmli dövlət xadimi Heydər Əliyev bütün sahələr kimi, informasiya blokadasını yarmaq üçün də tədbirlər gördü, ölkə və xarici media orqanları ilə əlaqələr quruldu, Azərbaycan Dövlət Televiziyasının yayımı bərpa edildi, Naxçıvan dünyaya açıldı. Muxtar respublikada yerli media orqanlarının fəaliyyətinə də diqqət artırıldı. Naxçıvan Dövlət Televiziyasının yayımı və "Şərq qapısı" qəzetinin nəşri üçün sistemli tədbirlər həyata keçirildi. Ulu öndərin həyata keçirdiyi xilaskarlıq missiyasını öz səhifələrində əks etdirən "Şərq qapısı" qəzeti nəinki, muxtar respublikada, eləcə də ölkəmizdə əl-əl axtarılan mətbuat orqanına çevrildi.

1995-ci ildən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvanda informasiya idarəçiliyi sahəsində yeni mərhələnin əsası qoyuldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 29 mart tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamı muxtar respublikanın kütləvi informasiya vasitələrinin fəaliyyətini xeyli genişləndirdi. Qısa zamanda informasiya blokadasına qarşı mübarizədə Naxçıvan özünəməxsus model yaratdı. Bu sahədə nəzərdə tutulmuş tədbirlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsinin nəticəsidir ki, indi Naxçıvan dünyanın istənilən nöqtəsinə həm informasiya verir, həm də alır. Hazırda muxtar respublikada "Şərq qapısı", 8 şəhər və rayon qəzeti, elm və ali təhsil müəssisələrinin qəzetləri, 3 televiziya, 3 radio, 1 informasiya agentliyi və onlarla internet informasiya resursları, nəşriyyatlar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Mətbuat Şurası, Televiziya və Radio Şurası fəaliyyət göstərir.

Hazırda Naxçıvanda bütün qəzet və jurnallar yüksək poliqrafik keyfiyyətlə nəşr edilir. Bu illər ərzində Naxçıvan Dövlət Televiziyası və Radiosunun müstəqil kanalda yayımlanmağa başlaması Naxçıvan mediasının ən böyük uğuru sayılır. Müxtəlif illərdə teleradionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, müasir texniki avadanlıqlarla təchiz edilib. Yeni yayım avadanlıqları qısa zamanda analoq yayımın yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənməsinə şərait yaradıb və Naxçıvan Dövlət Televiziyası ölkəmizdə ilk dəfə olaraq yüksəkkeyfiyyətli HD formatda yayıma keçib. Naxçıvanlıların informasiya təminatı bununla məhdudlaşmayıb. Muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə müasir poçt xidmətləri təşkil edilib. Dövri mətbuatın oxuculara vaxtında çatdırılması təmin olunub. Bu sahədə həyata keçirilən tədbirlər davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələrin təsis olunması dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsasını qoyub. Hazırda muxtar respublikanın bütün mərkəzi icra hakimiyyəti orqanlarının internet saytları fəaliyyət göstərir.

Muxtar respublikanın kütləvi informasiya vasitələrində kadr ehtiyatının yaradılması da diqqət mərkəzində saxlanılıb. 2001-ci ildə Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası açılıb, 2010-cu ildə jurnalist kadrların praktik cəhətdən hazırlanması üçün Media Mərkəzi yaradılıb. Media Mərkəzində fəaliyyət göstərən "Universitet" televiziyası və "Nuhçıxan" radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mediasına öz töhfələrini verirlər. Bu gün Naxçıvan mediasında çalışan 400-dən artıq əməkdaşın sırasında həmin ixtisasın məzunları yeni uğurlara imza atırlar.

Bəhs olunan dövrdə informasiya blokadasının yarılması üçün Naxçıvanda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin internetə çıxışı ən vacib məsələlərdən biri idi. 1999-cu ildə ilk dəfə olaraq Naxçıvan Kompüter Mərkəzində 8 abunəçi ilə internetə qoşulma imkanı əldə olundu. 2003-cü ildə Naxçıvanda yeni internet provayder xidməti – *nakhchivan.az* abunəçilərin istifadəsinə verildi. 2006-cı ildən etibarən *nakhinternet.az* olaraq fəaliyyətini davam edən xidmət bu gün daha geniş informasiya mübadiləsi imkanlarına malikdir. Bütün bunlar Naxçıvanın informasiya blokadasının yarılması istiqamətində mühüm tədbirlər idi. 2005-ci ilin iyun ayında Naxçıvan Trans-Asiya-Avropa fiber-optik magistral xəttinə qoşulmaqla informasiyanın daha sürətli axınını təmin etmək imkanı əldə edildi. 2005-ci ilin iyun ayında Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan: problemlər və həllər" mövzusunda ilk elmi-praktik konfrans keçirildi. Azərbaycanda ilk dəfə Bakı-Naxçıvanarası videokonfrans bağlantısının qurulması ilə tarixi əhəmiyyətli bir hadisəyə imza atıldı. Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dedi: ***"Biz, sözün həqiqi mənasında, kompüter maarifçiliyinə nail olmalıyıq. Çünki bunsuz müasir cəmiyyət, vətəndaş cəmiyyəti mümkün deyil. İnternetdən istifadə mədəniyyətini hamı mənimsəməlidir".***

Ali Məclis Sədrinin böyük diqqəti ilə "Elektron Naxçıvan" layihəsi çərçivəsində müxtəlif illərdə keçirilən tədbirlər blokada şəraitində yaşayan Naxçıvanın həqiqətlərinin dünyaya çatdırılması, dünya informasiya məkanına qoşulması, muxtar respublikanın sosial-iqtisadi inkişafına elmin və yeni texnologiyanın dəstəyinin təmin olunması istiqamətində mühüm rol oynadı.

2010-cu il 5 aprel tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzi yaradıldı. Bununla da informasiya təminatında başlıca rol oynayan, müasir, etibarlı internet saytlarının yaradılması istiqamətində də muxtar respublikada artıq zəngin təcrübə qazanıldı, bacarıqlı mütəxəssislər formalaşdı. Ümumiyyətlə, informasiya cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada internet şəbəkəsinin əhatə dairəsini xeyli genişləndirib. Artıq ən ucqar kəndlərdə belə, genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir. "Naxtel" mobil operatorunun fəaliyyətə başlaması isə Naxçıvanda 4G internetdən istifadə olunması informasiya-məlumatlandırma işinin səmərəliliyini xeyli artırıb.

2010-2020-ci illər Naxçıvanda informasiya blokadasının yarılması istiqamətində yeni mərhələ təşkil edir. 2012-ci ildə *www.serqqapisi.az* internet ünvanının yaradılması ilə Naxçıvan informasiya müharibəsində əmin addımlarla irəlilədi. Həmin illərdə əməkdaşı olduğum "Şərq qapısı" qəzetinin ünvanına ölkəmizdən və dünyadan yüzlərlə məktub daxil oldu. Artıq bu saytla oxucular Naxçıvan haqqında rəsmi təsdiqlənmiş, dəqiq informasiya əldə etmənin sevincini bölüşürdülər. Beləliklə, muxtar respublikada medianın inkişafı burada yeni informasiya saytlarının yaradılmasına təkan verdi.

Bu illər ərzində rəsmi media orqanlarının internet üzərindən yayımının təmin edilməsi davam etdirilməkdədir. 2016-cı il oktyabr ayının 17-də Naxçıvan televiziyasının internet saytının istifadəyə verilməsi məmləkətimizin informasiya blokadasının yarılması yolunda ən böyük addımı oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışında bu məsələyə toxunaraq demişdir: ***"Naxçıvan televiziyasının internet üzərindən yayıma başlaması dövlət müstəqilliyinin bəhrəsidir. Eyni zamanda bu 25 ildən artıq blokada şəraitində yaşayan muxtar respublikada informasiya blokadasının yarılması deməkdir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 6 fevral tarixli "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi haqqında" Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının ilk rəsmi informasiya agentliyi – "Nuhçıxan" və onun *nuhcixan.az* saytı fəaliyyətə başladı. Üç dildə xəbər yayımlayan agentliyin yaradılması muxtar respublikada elektron medianın inkişafına ən böyük töhfə oldu. Qısa zamanda öz ətrafına geniş izləyici kütləsi toplayaraq təkcə Naxçıvanın deyil, həm də Azərbaycanın əsas informasiya portallarından birinə çevrildi. Naxçıvan Televiziyasının sosial şəbəkələrində – "Youtube" kanalı, "Facebook", "Instagram", "Twitter", "Telegram" səhifələrində yüz minlərlə izləyicisi var. 2018-ci ilin noyabr ayından Naxçıvan Dövlət Radiosunun "Youtube" kanalı üzərindən canlı yayımının təşkil edilməsi radioya minlərlə dinləyici auditoriyası qazandırıb.

Qeyd edim ki, muxtar respublikada informasiya idarəçiliyinin düzgün tənzimlənməsi üçün həyata keçirilən tədbirlər davam etməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması bu sahədəki ən mühüm tədbirlərdən biridir. Elə həmin ilin sentyabrın 27-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüş keçirildi. Verilən tapşırıqlara uyğun olaraq fondun fəaliyyəti qısa müddətdə təmin edildi, yeni layihələr hazırlandı və müsabiqələr keçirildi, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlıq daha da gücləndirildi. Fondun Televiziya və Radio Verilişləri Redaksiyasının fəaliyyəti yenidən təşkil olundu, redaksiyanın nəzdindəki "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosunun efir keyfiyyətinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirildi.

Bəli, Naxçıvan mediası informasiya blokadasını yararaq dünyaya çıxıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahədə apardığı, onun rəhbərliyi ilə hazırlanıb həyata keçirilən sistemli tədbirlər sübut etdi ki, blokada və digər təhdidlər Vətən sevgisi qarşısında davam gətirə bilməz. Bu gün Naxçıvan mediası xalqın və dövlətin mənafeyini müdafiə etməklə insanlar arasında böyük güvən qazanıb və əsas meyarı VİCDANDIR. Bu gün Naxçıvanda milli dövlətçiliyimizi qoruyan və dünyada gedən prosesləri təhlil edən peşəkar jurnalist ordusu formalaşıb. Naxçıvanlı jurnalistlərin ən böyük dayağı isə Ali Məclis Sədrinin yüksək etimadı, qayğı və diqqətidir. Bu gün dünya mediası Naxçıvanın iri beynəlxalq forumlarından, zirvə toplantılarına ev sahibliyi etməsindən, müxtəlif beynəlxalq idman yarışlarından yazır. Hər il muxtar respublikaya yüz minlərlə turist, jurnalist və qonaq gəlir. Turistlər öz sosial hesablarında Naxçıvanla bağlı müxtəlif paylaşımlar edir, jurnalistlər silsilə yazı və verilişlər hazırlayırlar. Muxtar respublika haqqında müxtəlif dillərdə məlumatlar yayımlanır. Bütün bunlar muxtar respublikada söz və mətbuat azadlığının, kütləvi informasiya vasitələrinin fəaliyyətinə göstərilən dövlət qayğısının bəhrələridir. Bir sözlə, bir zamanlar informasiya blokadasına salınan Naxçıvanın sorağı bu gün dünyanın hər yerində eşidilir.

Bunu da xüsusi ilə vuğulamaq lazımdır ki, bu gün Azərbaycanda Naxçıvan haqqında ictimai rəyin formalaşması, əhalinin məlumatlandırılmasında Naxçıvan mediası ilə yanaşı, sosial şəbəkələrdən aktiv istifadə edən naxçıvanlıların rolu da danılmazdır. Yuxarıda da qeyd etdiyim ki, sürətli internet təminatı bütün naxçıvanlıların sosial şəbəkələrdən sərbəst istifadəsinə imkan verib. Sosial şəbəkələrdə yüzlərlə gənc Naxçıvanın təbliğatına xidmət edən səhifələr yaradıb. Bundan başqa, onlar yayılan hər hansı dezinformasiya xarakterli məlumatlara düzgün və yerindəcə cavab verməyi vətəndaşlıq borcuna çeviriblər.

Sonda qürurla söyləyə bilərik ki, bu gün Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanmaqla və ölkə başçısı cənab İlham Əliyevin apardığı siyasəti dəstəkləməklə təkcəərazi-iqtisadi blokadasını deyil, informasiya blokadasını da aradan qaldırmaqda nümunə gücünə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Həyata keçirilən tədbirlər muxtar respublikada informasiya blokadasını yarıb. Artıq muxtar respublikada baş verən hadisələr qısa müddətdə bütün dünyada yayılır. Dünyanın müxtəlif ölkələrində yaşayan ekspertlər, tədqiqatçılar Naxçıvanla bağlı məlumatlar əldə edirlər. Muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafı bundan sonra da diqqətdə saxlanılacaqdır. Hər bir jurnalist isə öz qələmi ilə Vətəninə, xalqına xidmət etməlidir".***

**P.S.** *Yazımızı çapa hazırlayarkən öyrəndik ki, bu gün "Naxtel" öz abunəçilərini yeni ünvandan salamlayır. Məlumdur ki, bu gün informasiyanın daha keyfiyyətli əldə edilməsi və ötürülməsi üçün sürətli internetin olması, onun mobilliyi əsas şərtlərdən biridir. Artıq bir neçə ildir ki, 4-cü nəsil "Naxtel" mobil rabitə şəbəkəsinin istifadəçiləri də yaradılan müasir şəraitdən bəhrələnməklə yeni texnologiyaların həyatımıza gətirdiyi sürət və komfortdan maksimum faydalanmaq imkanı qazanıblar. Bəli, bu da Naxçıvanın informasiya blokadası sahəsindəki böyük qələbəsidir. Naxçıvanın müasir imicinin və inkişaf səviyyəsinin dünyaya tanıdılmasında "Naxtel" mobil rabitə şəbəkəsinə uğurlu yollar arzulayırıq! Naxçıvanımızın xoş sədalarını bütün dünyaya çatdırmaq diləyi ilə...*

**Sara ƏZİMOVA**
***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü***

Gəncliyimiz, gələcəyimiz

# Elm ziyasının yeni yolçuları...

***Ucu-bucağı görünməyən bir ümmana bənzəyən elm xəzinəsinin sirlərinə yiyələnmək üçün gərəkdir ki, bütün səy və bacarığını əsirgəmədən daim öz üzərində çalışasan, hər gün bir addım irəli getməyə nail olasan. Yalnız belə olan halda öz dünyagörüşünü dövrə uyğun şəkildə formalaşdıra, müstəqil fikir və əqidə sahibi kimi cəmiyyətdə üstün mövqe qazana bilərsən. Müasir dövrümüzdə elm və texnologiyanın günbəgün yeniləşdiyini nəzərə alanda elmli, təhsilli yetişməyin böyük mənada önəmli olduğu daha qabarıq şəkildə ortaya çıxır.***

Muxtar respublikamızda da gənclərin elmə, təhsilə, müxtəlif sənət, peşə sahələrinə yiyələnmələri üçün hərtərəfli şərait yaradılır, təhsil müəssisələrində innovativ texnologiyalardan, müasir tədris metodlarından istifadə öz müsbət nəticələrini verir. Qəbul imtahanlarında əldə olunan uğurların yüksələn templə artması da məhz təhsil sahəsində görülən işlərin, bu istiqamətdə reallaşdırılan layihələrin bəhrələridir. Builki qəbul imtahanlarında qazanılan nailiyyətlər muxtar respublikamızın bütün bölgələri kimi Culfa rayonunun timsalında da ürəkaçandır. Onlardan biri də Teyvaz kənd tam orta məktəbinin



məzunu ***Rifat İmanov***dur. Rifat II ixtisas qrupu üzrə 640 bal toplayıb. İlk həmsöhbətim – Rifatın riyaziyyat müəllimi Sidqi Vəliyev şagirdi haqqında ürəkdolusu danışdı. Bildirdi ki, məktəbin builki abituriyentləri arasında Rifat ən yüksək nəticə göstərməklə təhsil müəssisəsinin adını ucaldıb. Bütün müəllimləri kimi mən də qürur hissi keçirirəm. Onun dərslərdəki fəallığı, dəqiq elmlərə, xüsusilə də riyaziyyata, coğrafiyaya həddsiz marağı məndə bu uşağın gələcəyinin parlaq olacağı fikrini yaratmışdı. Böyük Çin filosofu Konfutsi deyirdi ki, heç kim müvəffəqiyyət nərdivanını əlləri cibində çıxmayıb. Bəli, tanınmış sənət adamlarının, görkəmli şəxsiyyətlərin həyatına nəzər salanda aydın olur ki, onlar bu yüksək pilləyə asanca gəlib çatmayıblar. Həyatın keşməkeşli yollarında əsən burulğanlarla teztez üzləşiblər. Həyat mübarizləri sevir, gərək arxasınca getdiyin işin çətinliyi səni qorxutmasın, sonadək məqsədin naminə çalışasan. Bu baxımdan təcrübəmə əsaslanıb deyə bilərəm ki, bəzi şagirdlərin hər hansı fənnə marağı olsa da, onlar qarşılarına məqsəd qoymurlar. Nəticədə, uğur da qazana bilmirlər. Lakin Rifatda bu məqsədi hər zaman hiss etmişəm. O, riyaziyyat ixtisası üzrə fənn olimpiadalarında, müxtəlif bilik yarışlarında uğurlu iştirakı ilə bizi qürurlandırıb. Sınaq imtahanlarında hər zaman yüksək bal toplayan Rifatın qəbulda da uğur qazanacağına şübhəmiz yox idi və o öz biliyi ilə biz müəllimlərinin inamını təsdiqlədi.

Rifat İmanov da qazandığı uğurun sevincini bölüşərək bildirdi ki, uşaqlıqdan böyüyəndə maliyyə, mühasibatlıq sahəsində çalışmağı qarşıma məqsəd qoymuşdum. Qəbul imtahanlarında topladığım balı da nəzərə alaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə ixtisasını seçdim. İnanıram ki, arzumu həyata keçirməyi bacaracağam. Muxtar respublika üzrə tələbə adını qazanan bütün gənclər kimi, mənim üçün də daha bir əlamətdar hadisə Ali Məclisin Sədri ilə görüş oldu.

Ali məktəbə qəbul imtahanlarında yüksək müvəffəqiyyət əldə etmək başlıca amil olsa da, tələbələri dinlədikcə bu qənaətə gəlirsən ki, çox oxumaq uğur qazanmaq üçün kifayət deyil. Hədəfin yoxdursa, çətin ki, uğura doğru irəliləyib, müvəffəqiyyət qazanasan.

"İstənilən uğurun sirri özünəinam, məsuliyyət və səbirdədir", – deyən ***Kamal Şahverdiyev*** III qrup üzrə 628 bal toplayaraq tələbə adını qazanan abituriyentlərimizdəndir. Naxçıvanda dünyaya göz açan Kamal şəhərdəki 3 nömrəli tam orta məktəbi bitirib. Öz bacarığı, qabiliyyəti ilə məktəbin sevimlisinə çevrilən bu şagirdin nailiyyət qazanmasında müəllimlərinin əməyi danılmazdır. Kamal məktəbdə keçirilən bütün bilik yarışlarında və tədbirlərdə fəallığı ilə seçilib. Dəfələrlə olimpiadalarda iştirak edib və mükafatlara layiq görülüb.

O, hələ kiçik yaşlarından vaxtını təhsilə, mütaliəyə həsr edib. Müasir dövrdə geniş yayılmış müxtəlif informasiya texnologiyaları vasitələrindən səmərəli istifadə edən Kamal Şahverdiyev deyir ki, uğur əldə etmək üçün mütləq hədəfin olmalıdır, qarşıya real məqsəd qoymalısan. Belədə, heç bir çətinlik insana mane ola bilməz. Təbii ki, bunun üçün təhsil mühüm şərtlərdən biridir. Yaxşı oxumalısan ki, gələcəkdə çalışacağın sahənin incəliklərini dərindən biləsən. Kamalın fikrincə, həyatda öz ixtisasına, peşəsinə mükəmməl yiyələnməklə yanaşı, vətənpərvər olmaq da mühüm şərtdir. Əks təqdirdə çalışdığın sahəyə vicdanla xidmət etməyəcəksən.



Kamal Şahverdiyev söhbət əsnasında onu da, xüsusilə qeyd etdi ki, bu gün muxtar respublikamızda təhsilin inkişafı üçün böyük işlər görülür. Hər il yeni məktəb binaları tikilir, təhsil ocaqları müasir tədris avadanlıqları ilə təmin olunur. Mənim təhsil aldığım 3 nömrəli tam orta məktəbdə də tədris üçün hərtərəfli şərait var. Yəni müasir dövrdə şagirdlərin yaxşı oxumaması üçün heç bir səbəb yoxdur. Həmçinin şagirdlərin biliyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu il tam orta təhsili nailiyyətlərlə başa vuran bir qrup məzun "Qızıl" və "Gümüş" nişanlarla təltif olunub. Mən də onlardan biriyəm – "Qızıl" nişana layiq görülmüşəm. Elə bu etimadı da doğruldaraq qəbul imtahanında 628 bal toplamışam. Gələcəkdə hüquqşünas olmağı arzulayan Kamal deyir ki, hələ orta məktəb illərində oxuyarkən vətəndaşların hüquqlarını, qanunlarımızın aliliyini qorumaq başlıca məramım olub. Elə humanitar elmlərə marağım da III ixtisas qrupunu seçməyimi gerçəkləşdirib. Arzuma çatmaqda təhsil aldığım məktəbin pedaqoji kollektivinə borcluyam. Əlbəttə, mənim kimi, hər bir gəncin belə uğurlar qazanması dövlətimizin təhsilə olan yüksək diqqət və qayğısı sayəsindədir. Bunun müqabilində biz gənclərin üzərinə nümunəvi təhsil almaq və Vətənə layiqli övladlar kimi yetişmək vəzifəsi düşür. Bu gün əldə etdiyim nəticə hələ hər şeyə nail olmaq demək deyil. Mən bir gənc kimi bundan sonra da daha səylə çalışacağam ki, müəllim və valideynlərimin etimadını doğruldum.

Kamal deyir ki, muxtar respublikamızda artıq ənənə şəklini alan, yüksək bal toplayan məzunlarla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovla görüşdə mən də iştirak etdim. Həmin tarixi görüşdə muxtar respublika rəhbərinin səsləndirdiyi ***"Hər bir ölkənin gələcəyi o ölkə insanlarının alacağı təhsillə bağlıdır. Bu mənada, hərtərəfli təhsil alan gənclər ölkəmizin gələcək təminatçılarıdır. Tələbəlik illəri insan həyatının ən məsuliyyətli dövrüdür. Ona görə də təhsilinizi uğurla başa vurmaq, seçdiyiniz ixtisası dərindən öyrənmək, kamil mütəxəssis kimi yetişmək sizlərin qarşısında duran əsas vəzifələrdir. Biliklərə əsaslanan iqtisadiyyat, innovasiya yönümlü inkişaf yaşadığımız dövrün reallıqlarıdır. Buna gedən yol isə əldə olunan biliklərin təcrübədə tətbiqindən keçir. Çalışıb nəzəri biliklərinizi təcrübədə doğrultmalısınız"*** kimi dəyərli fikirləri mənim bundan sonrakı həyatıma işıq saçan mayak rolu oynayacaq. Bu gün mən Vətən qarşısında öz borcumu hiss edir və əminliklə deyirəm ki, göstərilən etimadı doğruldacaq, Azərbaycan gəncliyinin adına layiq olacağam.

Biz də gənclərimizi qazandıqları uğurlara görə təbrik edir, onlara ali təhsildə, həmçinin bundan sonrakı həyatlarında müvəffəqiyyətlər arzu edirik.

*Bəli, elm, təhsil sərhədsiz bir ümmandır. Alimlər, müdrik insanlar bu ümmandan nə qədər bəhrələnsələr də, onun xəzinəsi tükənməyib, əksinə, elm dəryası daha da dərinləşib, saflaşıb. Həqiqətən də, yalnız elm və təhsilə dərindən yiyələnməklə xalqına, Vətəninə daha çox töhfə verə bilərsən. Sevindirici haldır ki, muxtar respublikamızda təhsilə, elmə böyük əhəmiyyət verən gənclərimizin sayı ilbəil çoxalır. Hər il ali təhsil müəssislərinə qəbul olunan məzunlar içərisində 500-700 arası bal toplayanların sayı artır. Bu isə hər birimizdə gələcəyə daha böyük inam yaradır. Çünki cəmiyyətin gələcək tərəqqisi ağıllı, bilikli gənclərin əlindədir.*

**Nail ƏSGƏROV**
**Gülcamal TAHİROVA**

# Milli Musiqi Gününə həsr olunmuş tədbirlər keçirilib



Sentyabrın 17-də Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Filarmoniyasının və Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivlərinin ifasında Milli Musiqi Gününə həsr olunmuş ədəbi-bədii kompozisiya onlayn formada izləyicilərə təqdim edilib.

Kompozisiyanın rejissoru Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevdir.

Onlayn tədbir Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin ifasında Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının "Müqəddimə" hissəsinin ifası ilə başlayıb. Orkestrin bədii rəhbəri, Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundov, baletmeyster Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov, xormeyster İlhamə Şirəliyevadır.

Naxçıvan Dövlət Filarmoniyasının solistlərindən Azərbaycan Respublikasının Əməkdar artisti Mübariz Əsgərov "Koroğlu" operasından "Aşıq mahnısı"nı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfiqar Mahmudov və müğənni Nərmin Hüseynova "Leyli və Məcnun" operasından "Mahur hindi"ni və Leyli ilə Məcnunun duetini, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Ruhiyyə Hüseynova və müğənni İlkin Abdullayev "Arşın mal alan" operettasından Əsgərlə Gülçöhrənin duetini ifa ediblər.

Tədbirdə xor kollektivinin ifasında "Leyli və Məcnun" operasından "Şəbihicran", "Koroğlu" operasından "Çənlibel xoru", "Arşın mal alan" operettasından "Qızların xoru" musiqisevərlərə təqdim olunub. Orkestrin ifasında təqdim edilən "Arşın mal alan" operettasından "Uvertüra", "Koroğlu" operasından "Antrakt", "Döyüş səhnəsi"nin və görkəmli bəstəkar Üzeyir Hacıbəylinin digər musiqi əsərlərinin professional ifası maraqla qarşılanıb. Filarmoniyanın rəqs kollektivinin ifa etdiyi "Koroğlu" operasından rəqs də izləyicilərə xoş ovqat bəxş edib.

Naxçıvan Dövlət Filarmoniyasının solistlərindən Azərbaycan Respublikasının Əməkdar artisti Mübariz Əsgərov və Gülyanaq Fərzəliyevanın birlikdə ifa etdikləri "Koroğlu" operasından final səhnəsi ilə başa çatan onlayn tədbir bir saata yaxın davam edib.

* * *

***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının arxasındakı yaşıllıq parkında Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin Milli Musiqi Gününə həsr olunmuş bayram konserti olub.***

Bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami



Məmmədov, baletmeysteri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov, dirijoru Elvin Əliyarov olan kollektivin repertuarında Azərbaycan bəstəkarları ilə yanaşı, Avropa və rus bəstəkarlarının musiqi əsərlərinə də geniş yer verilir.

Orkestr konsertə Eldar Mansurovun "Odlar yurdu" mahnısı ilə başlayıb. Naxçıvan Dövlət Filarmoniyasının solistlərindən Azərbaycan Respublikasının Əməkdar artistləri Mübariz Əsgərov, Gülyanaq Fərzəliyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Elçin Nağıyev, Ruhiyyə Hüseynova, Azər Cəfərli, müğənnilərdən Samir İsmayılov, Rahim Əsgərzadə, Nağı Nağızadə, İlkin Abdullayev Azərbaycan və dünya bəstəkarlarının mahnılarını ifa ediblər. Naxçıvan Dövlət Televiziyasında və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarında da canlı olaraq yayımlanan bayram konsertində tamaşaçı və izləyicilərə müxtəlif rəqs nömrələri də təqdim olunub.

Naxçıvan Dövlət Filarmoniyasının rəqs kollektivinin "Atəşgah" rəqsi ilə başa çatan konsert tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

* * *



Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Milli Musiqi Gününə həsr olunmuş onlayn konsert keçirilib. Ali təhsil ocağının rəsmi "Facebook" səhifəsi üzərindən canlı yayımlanan konsertdə giriş sözü ilə Musiqinin tarixi və nəzəriyyəsi kafedrasının müəllimi Rumiyyə Məmmədova çıxış edib. Qeyd olunub ki, 18 sentyabr – Milli Musiqi Günü Azərbaycanın dünya şöhrətli bəstəkarı, görkəmli musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəyovun doğum günü ilə əlaqədardır. Ümummilli lider Heydər Əliyevin 1995-ci ildə – dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı Fərmanla hər il sentyabrın 18-i ölkəmizdə "Musiqi Günü" kimi qeyd olunur.

Konsertdə dahi bəstəkarın "Arşın mal alan" musiqili komediyasından parçalar, "Sənsiz", "Cəngi" əsərləri səsləndirilib. Konserti fakültənin "Buta" instrumental ansamblı, fortepianoda isə Ülvi Əhmədov və Səxavət Rəhimov müşayiət ediblər. Xalq mahnısı "Sarı gəlin" və Azərbaycanın digər görkəmli bəstəkarlarının əsərləri konsertə xoş ovqat bəxş edib.

**Səadat ƏLİYEVA**

### Bildiriş

"Daxili Araz Yükdaşıma" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək "Aras Karqo Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

### İtmişdir

Naxçıvan şəhəri, M.Nəsirli küçəsi, ev 23-də yaşayan Əliyev Məmməd Ramazan oğlunun adına olan 5 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 709